| | |
|---|---|
| AKTIN NÖVÜ | AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN QƏRARLARI |
| QƏBUL EDİLDİYİ TARİX | 20.12.1991 |
| QEYDİYYAT NÖMRƏSİ | 32 |
| ADI | Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının Müstəqil Dövlətlər Birliyinə münasibəti haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı (Dərc olunma tarixi: 31-12-1991, Nəşr nömrəsi: 24, Maddə nömrəsi: 467) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 010.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının Müstəqil Dövlətlər Birliyinə münasibəti haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI ALİ SOVETİ MİLLİ ŞURASININ QƏRARI

Dövlət quruculuğu, hüquqi siyasət, xarici işlər və iqtisadiyyat komissiyalarının Müstəqil Dövlətlər Birliyinə münasibət məsələsi üzrə rəylərini müzakirə edib Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası **qərara alır:**

1. Azərbaycan Respublikasının indiki vəziyyətdə Müstəqil Dövlətlər Birliyinə qoşulması məqsədəuyğun sayılmasın.

2. Azərbaycan Respublikası ərazisində yerləşən Sovet Silahlı Qüvvələri hissələrinin statusunu Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına, Azərbaycan Respublikası Ali Sovetinin, Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının qərarlarına və respublika Prezidentinin fərmanlarına əsasən müəyyən etmək və həmin hissələrin tezliklə Azərbaycan Respublikasından çıxarılması barədə Müstəqil Dövlətlər Birliyi ilə danışıqlar aparmaq Azərbaycan Respublikasının Prezidentinə təklif edilsin.

**Azərbaycan Respublikası Ali Soveti**
**Sədrinin birinci müavini**
**Z. SƏMƏDZADƏ.**

Bakı şəhəri, 20 dekabr 1991-ci il.
32.